# Böyük Alim və Adam

168



*Sonuncu ifadəni də böyük hərflə yazmağımı qəribçiliyə salmamalı...*
*Nədən ki, xalq deyir: "Alim olmaq asandır, adam olmaq çətin"...*
*Həm də ona görə ki, söhbət bir vaxtlar sadə xalq kütlələrinin də yaxşı tanıyıb hörmət-izzətlə qarşıladığı, məşhur jurnalist və publisistlərin "insani münasibətlər istedadı", "ziyalılıq meyarı", "millilik mücəssəməsi" kimi öydüyü, yüksək səviyyəli dostlarının "Sirri-Xuda" adlandırdığı Xudu Məmmədovdan gedir.*

Böyük xalq elə deyir, mətbu tanışları və elitar dostları belə buyurub, mənciyəz də ərz edim ki, peşələr, sənətlər, əməllər içərisində "adamlıq" işindən çətini, "insanlıq" iksirindən mürəkkəbi yoxdur; bu zəllə "məsələ"dən kəm-kəsirlik neçə-neçə "kəllə", "fenomen", "ensiklopediya" yarlıqlı alimin xalqi şan-şöhrət kürəyini yerə vurub, "milli ziyalı" adını bada verib, ictimai-məhəlli reputasiya kələyini kəsib...

Xudu Məmmədov əsl elm-alim aləmi haqda yaranmış bu "helmi" gümanı, neqativ "pleyada"nı durdurmağa çalışanlardan biri, öz hədsiz səmimiyyəti, söhbət-ülfətcilliyi, hərdən qələmə aldığı, bəzən bədahətən dediyi neçə-neçə bayatı nümunələrilə, bəlkə də, birincisi oldu; məsələn:

*Elim köməyim olsun,*
*Əlim köməyim olsun,*
*Xalqa yük olaramsa,*
*Ölüm köməyim olsun!..*

Bunu "Qoşa qanad" kitabında elm ilə sənətə həyatın dialektik vəhdəti kimi baxan Xudu Məmmədovun elm-ədəb-irfan manifestinin epiqrafı hesab etmək olarsa, epiloq təsiri bağışlayan başqa bir bayatısını da xatırlayaq:

*Bu qala bizim qala,*
*Qaldıqca bizim qala.*
*Tikmədim – özüm qalam,*
*Tikdim ki, izim qala...*

**"Tikdim ki..." ?**

Sözsüz, o, inşaatçı deyildi – nə isə tikəydi (gözəl dizayner, memar və rəssamlıq zövqü, qeyri-adi rəsm, həndəsi fiqur, konstruksiya qabiliyyətləri olsa belə). O öz "iz" tikintilərini böyük elmi işləri, kəşfləri, ictimai-fəlsəfi irsimizi zənginləşdirən frazalarıı ilə apardı. Auditoriyalarda, akadem-toplantı, partiya-hökumət yığıncaqları, sadə el-oba məclislərində (ştatlı agent və ştatdankənar çuğulçuları vecinə almadan) etdiyi irfani dissidentliyi, televiziya ekranında alliterasiya adına işlətdiyi "xalq" – "qalx" kimi kəlmələrilə hörürdü. Onun Azərbaycan SSR EA-da Moskva və Leninqraddan gəlmiş yüksək çinli nümayəndələr (hətta bir Sov. İKP MK Siyasi Bürosu üzvü) ilə mübahisəsi isə İttifaq dövrünün "fundamental sükut"unu pozan "məxfi xəbərlər"dən sayılırdı. Həmin yığıncaqda onlardan biri (tez-tez X.Məmmədova baxa-baxa) son vaxtlar Azərbaycanda "auditoriyalardanxaric dərslər" deyilməsi, şairlərdən birinin (R.Rzanın) "Hər şey bölünəndə Bakının da püşkünə beynəlmiləlçilik düşüb" kimi yanlış ədəbi nümunələr və sair siyasi səbatsızlıqlar hesabına "bənzərsiz Bakı beynəlmiləlçiliyi"nə xal düşdüyündən danışıb, tez-gec bunun hesabatının veriləcəyini vurğulayır. Bu təhdidlərə dözməyən X.Məmmədov "ne uqrajayte, pajaluysta" deyir və şair Abbas Abdulla da ona qoşulur. Bəyan edirlər ki, beynəlmiləlçilik yaxşı şeydir, ancaq – müttəfiq respublikalarda milliliyin inkarı, aşağılanması hesabına yox! Əgər beynəlmiləlçilik sizin vurğuladığınız dərəcədə vacibdirsə, onda gəlin bunu tək elə teatr, kino, bulvar, kolbasa, sosiska, salo və s. sarıdan bolluq yaşayan Bakıda yox, İmişlinin pambıq tarlalarında, Zaqatalanın tütün, Lənkəranın çay plantasiyalarında da edək!..

Bəli, o, sosializmlikdən çox, susalizmliklə məşğul olan falş bir "izm"də belə-belə milli iz binövrələri qoya-qoya, sözügedən manifestin inşasına doğru gəlirdi...

> **Tez-tez əsən siyasi-ideoloji rüzgarların (və internasional həmkarlarının) söndürə bilmədiyi bu canlı milli-mənəviyyat çırağı öz yağını, güvən "sığorta"sını özünün tərtəmiz nəfsindən, şəxsi mənafecə büsbütün iddiasız "mən"indən alırdı. Yoxsa heç bir "adam"ı olmayan bu Adamı ilişdirməyə nə varmış ki! Baxmayaraq ki "yuxarılar" da onun adlı-sanlı dostları tərəfindən birmənalı sevildiyini, qeyri-adi energetika və ictimai aliliyinə binaən "Sirri-Xuda" adlandırıldığını bilirdilər. Ünlü şairlərin onu "ömür karvanına qeyrətli söz və əməllər yükləyən", "Sən dənizsən, biz – tərs axan çayların" misralarıyla öydüklərinin fərqində idilər.**

Çoxusu milli-mənəvi "karat"dan məhrum olan bu şəxslər 1953-cü ildə Moskvada keçirilən beynəlxalq elmi konfransda böyük-böyük sovet alimlərinin bu "balaca" azərbaycanlı haqda nələr dediyindən də xəbərdar idilər. O tədbirdə dünyanın elm nəhəngi, britaniyalı Con Bernal isə "mən bu dahi tələbəm haqda söz tapa bilmirəm" deyib duruxmuş, ən natiq sovet akademiki Sıçevin fikrinə belə qüvvət vermişdi: "Bəli, cənablar, müharibənin sökdüyü bu dünyanı yenidən tikmək üçün lazım olan ən möhkəm tərkibli sement artıq hazırdır! Neçə ildir bizim kimi "pensioner" alimlərin nail ola bilmədiyi bu kəşfi 25 yaşlı "pioner", tələbə-alim – cənab Xudu Məmmədov etdi!"

Belə...

1927-ci il dekabrın 14-də Ağdamın Mərzili kəndində doğulub Xudu adını almış, ali təhsil üçün kənddən rayon mərkəzinədək 15 kilometr yolu piyada gəlmiş, Yevlax avtobusuna bilet almaq üçün zənbilinə əl atarkən, atasının qoyduğu cüzi yolxərcinin ögey anası tərəfindən götürüldüyünü bilmiş (hələ sonralar insanların, ümumən dünyanın çeşidli namərdlikləri üzündən üç dəfə intihara cəhd edəsi) 17 yaşlı Xudu 25 yaşında "tələbə-alim", "cənab Xudu Məmmədov" olur. Və həmin il o, Moskvadan Bakıya, Bakıdan Ağdam şəhərinə növbəti bir sərnişin kimi gəlsə də, oradan kəndinə qədər – pişvazına çıxmış camaatın alqış, alxış, fəxr-fəxarət səs-sədaları altında gedir...

Bu el-elat sevgisi, cəmi-camaat rəğbəti, proletari-elitari ümumxalq məhəbbəti Xudu müəllimi bütün ömrü boyu müşayiət etdi. Rəsmi-rəyasət dəyərləndirilmələrinə gəldikdə isə...

Bəli, dünya şöhrətli alim bu dünyadan "Azərbaycan SSR Elmlər Akademiyasının müxbir üzvü"lüyü və "Şərəf nişanı" ordeni ilə getdi...

Buna çoxlarının təəssüfləndiyini görüb-eşitmişəm.

## O özü isə...

O özü qətiyyən belə şeylərin fərqinə varmaz, öz iş-gücü haqda heç harda heç nə danışmazdı. Əksinə, orda-burda camaatdan topladığı hikmət külçələrini işləyib, yır-yığıncaqlarda elə həmin xalqa qaytarar, vaxt tapanda yazardı: "Özünçün, ailə-ev üçün işləyərkən yorulmamaq istəyirsənsə, el üçün də çalışmaq gərəkdir".

> **Deyərdi: "Heç kəs eşitmək istəməyən adam qədər kar ola bilməz". Tez-tez təkrar edərdi: "Həyatın böyük çətinlikləri səni böyük məqsədlərdən yayındırırsa, uğurlar uğrunda çəkdiyin əzablar səni üzürsə, Füzulini yenidən oxu, "Koroğlu" uvertürasına bir də qulaq as, muğamlarımızı, saz havalarımızı daha huş-guşla dinlə; sənə yenidən qalxıb irəliləmək həvəsi gələcək"...**
> **Elə atalar sözü, zərbi-məsəllər var ki, adama kitab-kitab mənalar söyləyir, Dədə-Dədə mətləblər aşılayır. Onlardan biri də belə başlayır: "Adam var ki, adamlığın naxşıdır..." Ardını (bir dəfə batdığı palçığa bir də girməyən "üzdəniraq obraz"ın xatirinə) qeyd etmədən deyim ki, Xudu müəllim, doğrudan da, adamlığın naxışı idi!**

Ağlım kəsəndən bəri, elmi yaradıcılığına imkanım daxilində, intellektinə, obrazlı təfəkkürünə, ədəbi-bədii zövqünə, sənət aşiqliyinə, dahiyanə səmimiyyətinə, dostluq istedadına isə kifayət qədər bələd olduğum bu universal şəxsiyyət haqda "adınalayiq bir xatirə" yazmaq arzusunda bulunmuş, lakin hər cəhdimdə bunun onunla müqayisədə mümkünsüzlüyü və öz qələm-qabiliyyət imkansızlığıma dirənmişəm. Həmin o yazılmamış (və deyəsən heç yazılmayası) irihəcmli "portret-xatirə"nin sərLÖVHƏsi isə belə:

## "Doyulmaz İnsan"...

Tarixən adamların dərini olub, dayazı olub, yaxşısı, pisi, daha neçə-neçə sifətlisi, "təyin-tamamlıq"lısı olub, var və olacaq. "Çətin adam" ifadəsini də tez-tez eşidirik. Bu ifadənin antonimini isə, məncə, hələ işlədən olmayıb. Ancaq, söhbətlərində, yazılarında, bayatılarında xeyli yeni söz və obrazlar işlətmiş Xudu müəllim bu yeniliyi

